Kəramət

# Vaqif Nəsibin görünən və görünməyən tərəfləri



**Mən bütün yazıçıları yazıçı obrazı kimi tanımışam, daha sonra canlı şəkildə gördüklərim də olub, dünyasını dəyişənlərin ruhu ilə görüşmüşəm. Yəni mənim üçün min il bundan əvvəl doğulan yazıçı ilə indi doğulan və gələcəkdə doğulan yazıçının arasında elə bir fərq yoxdur.**

Çox balaca bir girişdən sonra belə bir keçid eləmək istəyirəm ki, oseriyadan olan mənim ruh və fikir anlamında tanıdığım yazıçıdır. Bəzən bizdə belə bir tendensiya hökm sürür ki, insanın fərdi xarakteri ilə onun yazıçı xarakterini qarışdırıb lüzumsuz sonuclara gəlib çıxırıq. Vaqif Nəsib mənim əvvəlcə yaradıcılığını sonra isə özünü tanıdığım simalardan biridir. Və mən ona həmişə yazılarına görə böyük minnət və hörmət borcumu israf eləmişəm. Ümumilikdə bu qos-qocaman bir yazıçının "Rəngli günlər" kitabı stolumun üstündədir. Amma bu kitabı mən qətiyyən oxumaq istəmirəm. "Nədən"i ondan ibarətdir ki, mən bu kişini, bu yazıçını o qədər tanıyıram ki... bu kitabda toplanan əsərlərin hamısını ya oxumuşam ya onun dilindən dinləmişəm, oxumuşam, bilirəm. Bu bilmək o bilmək deyil ki, ədəbiyyatdan yuxarı -aşağı səviyyədə görmürəm və dünya ədəbiyyatı sferasında dəyərləndirmək istəyirəm. Vaqif Nəsibi mən ilk öncə şeir kitabından tanımışam və o da yadımdadır ki, Rəsul Rza onun kitabına ön söz yazmışdır. Vaqif Nəsibin şeirləri də koloritlidi və mənim gənc yazar olaraq diqqətimi cəlb etmişdir. O gündən bu günə onun yazıçı obrazı mənim nəzərimdə formalaşıbdır. İndi ata- oğul nəsillərarası müzakirələr gedir. Məncə bunlar yersiz tənqidlərdi, yəni heç kəs özündən əvvəlik nəslin həyat tərzi ilə dünya baxışı ilə, konsepsiyası ilə yaşaya bilməz. Əvvəlkilər bu günkülər deyil, bugünkülər də sabahkılar deyil.




Vaqif Nəsib mənim nəzərimdə Azərbaycan nəsrinin vazkeçilməz nümayəndələrindən biridir. Azərbaycan nəsrinə gətirdiyi obrazlarla, fikir auditoriyasının genişliyi ilə, dilinin zənginliyi, orijinal keyfiyyətləri ilə sənətimizin qaçılmaz bir fenomeninə çevrilmişdir.n Stolumun üstündə olan "Rəngli günlər" kitabına qətiyyən baxmaq istəmirəm. Səbəbini də yuxarıda izhar elədiyim fikirlərlə bəliləmişəm. Bəzən insanın mənəvi zənginliyini onun ancaq müsəbt keyfiyyətləri ilə ölçülür. Əslində, insan təkcə bizim qəbul etdiyimiz müsbət keyfiyyətlərdən ibarət deyil. Vaqif Nəsib kiminsə qəbul etmədiyi adam ola bilər, amma o yazıçı olaraq qəbuledilməz deyil. Mən onu həyatın özü kimi müsəbt və mənfi keyfiyyətləri ilə qəbul edirəm və düşünürəm ki, həyatın özü kimidir. Bu dəyərli yazçının qədrini bilmək hamımızın borcudur.

ədalət 2019.- 15 avqust.- S.5.